# Nizami rayonunda iqtisadiyyat dinamik inkişaf edir

*Respublikada olduğu kimi cari ilin birinci yarısında Nizami rayonunda da qarşıya qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə yerinə yetirilib*



**Cari ilin 13 iyul tarixində Azərbaycan prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi. Cənab prezident iclası giriş nitqi ilə açaraq ilin altı ayının yekunlarının müsbət olduğunu, Azərbaycanın uğurla inkişaf etdiyini, hesabat dövrü ərzində əldə edilən uğurların tarixi olduğunu qeyd etdi.**

Dövlət başçısı cari ilin birinci yarısında neftin qiymətinin aşağı səviyyədə olmasına baxmayaraq iqtisadiyyatın inkişaf edərək 5.7 faiz, qeyri-neft sektorunun 9.2 faiz, sənaye istehsalının təxminən 4 faiz, qeyri-neft sənayesinin 14 faizdən çox, kənd təsərrüfatının isə 7.3 faiz artdığını söylədi. Azərbaycanda inflyasiyanın aşağı səviyyədə, yəni 3.5 faiz olduğunu qeyd edən möhtərəm prezident əhalinin pul gəlirlərinin inflyasiyanı üstələyərək 6.2 faiz artdığını bildirdi.

Ölkəmizə 6 ayda 12.7 milyard manat sərmayə qoyulduğunu söyləyən ölkə başçısı əvvəlki illərə nisbətən xarici investisiyaların üstünlük təşkil etdiyini, Azərbaycanın investisiyalar üçün çox cəlbedici ölkə olduğunu və xarici sərmayənin lazımi səviyyədə qorunduğunu vurğuladı. Ölkə prezidentinin Nazirlər Kabinetinin iclasında söylədiyi nitqindən irəli gələn vəzifələr 29 iyul 2015-ci il tarixində Nizami rayon İcra Hakimiyyətinin Şura iclasında geniş müzakirə olundu.

Müzakirədə çıxış edən Nizami rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd etdi ki, respublikada olduğu kimi 2015-ci ilin birinci yarısında rayonun sosial-iqtisadi inkişafı ilə əlaqədar qarşıya qoyulmuş bütün vəzifələr müvəffəqiyyətlə yerinə yetirilmişdir. Belə ki, 2015-ci ilin yanvar - iyun aylarında sənayedə fəaliyyət göstərən müəssisələr tərəfindən 250.5 milyon manat dəyərində məhsul istehsal edilmiş, xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 18.5 % çoxdur. Sənayedə istehsalın 26.5 faizi qeyri-dövlət sektoruna aiddir. Sənayenin dövlət sektorunda 184.1 milyon manatlıq və ya ümumi istehsalın 73.5 faizi qədər məhsul istehsal edilmiş, xidmətlər göstərilmişdir.

**Müəssisələr tərəfindən 2015-ci ilin II rübündə ümumi dəyəri 268.6 milyon manatlıq hazır məhsul istehlakçılara göndərilmişdir ki, bu da rüblük istehsal həcminin 107.1 faizini təşkil edir. Hesabat dövründə öz gücləri ilə yerinə yetirilən podrat işlərinin həcmi 143.9 milyon manat olmaqla, ötən ilin müvafiq dövrünə nisbətən 80.1 faiz təşkil etmişdir.**

2015-ci ilin II rübündə rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 125.7 milyon manat həcmində investisiya yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 88,9 faiz təşkil etmişdir. Qeyri-dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 62872.4 min manat (50 faiz), dövlət mülkiyyətinə məxsus müəssisələr isə 62799.0 min manat (50 faiz) sərmayə yönəltmişlər. Adambaşına düşən investisiyaların həcmi il ərzində 841.8 manat olmuşdur.

I rübdə bütün maliyyə mənbələri hesabına 24.5 milyon manatlıq əsas fondlar istifadəyə verilmişdir.

**2015-ci ilin yanvar - iyun aylarında istifadə edilmiş investisiyaların 114.0 milyon manatı və ya 91.0 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 16,1 faiz çoxdur.**

2015-ci ilin II rübündə pərakəndə ticarət dövriyyəsinin həcmi 4.3 faiz artaraq 1028.7 milyon manat olmuşdur. Ümumi ticarət dövriyyəsinin 14.7 faizi ticarət fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin, 21.9 faizi fiziki şəxslərin, 63.4 faizi yarmarka və kənd təsərrüfatı məhsulları bazarlarının payına düşür. İlin əvvəlindən özəl müəssisələrin fəaliyyət dairəsi daha çox genişlənmiş və rayon əhalisinin ərzaq və qeyri-ərzaq mallara olan tələbatının ödənilməsində onlar müstəsna rol oynamışlar. Pərakəndə ticarət dövriyyəsinin demək olar ki, 100 faizi onlar tərəfindən aparılmışdır.

2015-ci ilin altı ayında iaşə müəssisələrində 25.1 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 13.7 faiz çoxdur. Cari ilin yanvar - iyun aylarında pullu xidmətlərin həcmi isə 40.1 faiz artaraq 302.9 milyon manat olmuşdur. Pullu xidmətlərin 112.3 milyon manatı və ya 37.1 faizi hüquqi şəxslərin, 190.6 milyon manatı və ya 62.9 faizi fiziki şəxslərin fəaliyyəti hesabına yaranmışdır. Hesabat dövründə məişət obyektlərində 46.3 milyon manatlıq müxtəlif xidmətlər göstərilmişdir ki, bu da əhaliyə göstərilən pullu xidmətlərin 15.3 faizini təşkil etmişdir.

2015-ci ilin II rübündə rabitə sahəsində 161.7 milyon manat dəyərində xidmətlər göstərilmişdir ki, bu da əvvəlki ilə nisbətən 40,6 faiz, nəqliyyat sahəsində isə 51.8 milyon manat dəyərində və ya 22.1 faiz çox xidmət göstərilmişdir. Cari ilin II rübündə Nizami rayonunda 817 yeni iş yeri açılmışdır ki, ondan 261 yeni açılmış, 140 mövcud müəssisə və təşkilatlara, 416 isə fiziki şəxslərə aiddir. Cəmi 01.01.2003 - 01.07.25015-ci il tarixə rayonda 27588 yeni iş yeri açılmışdır ki, onun da 27491-u daimi iş yeridır.

**2015-ci ilin yanvar - may aylarında orta aylıq əmək haqqı 510.5 manat təşkil etmiş və sənaye sahəsində 8.6 faiz, nəqliyyat sahəsində 0.9 faiz, rabitə sahəsində 6.2 faiz, maliyyədə 7.3 faiz, ticarət sahəsində 1.2 faiz artmışdır. Mədənçıxarma 66.0 faiz, dövlət idarəedilməsi və müdafiə sahəsində 7.4 faiz, təhsil 1.8 faiz, səhiyyə sahəsində 3.9 faiz, istirahət, əyləncə, incəsənət sahəsində 6.9 faiz, digər sahələrdə isə 2.0 dəfə artım olmuşdur.**

**N.İSMAYILOV,**

**Nizami rayon Statistika Şöbəsinin rəisi**